# İNFORMASİYA TEXNOLOGİYALARI MƏRKƏZİNİN
# İLLİK FƏALİYYƏTİ (2018)

BDU-nun İnformasiya Texnologiyaları Mərkəzi (İTM) 30 elmi-tədris sinfini özündə birləşdirən müasir kompyuter avadanlıqları (1600 kompüter) və proqram vasitələri ilə təchiz olunmuşdur. 2018-ci ildə BDU-nun İnternet şəbəkəsinə qoşulan kompyuterlərin sayı artmış, istismar müddəti başa çatmış kompyuterlər isə yeniləri ilə əvəz olunmuşdur.

"Sabah" qrupları üçün yaradılmış auditoriyalarda elektron lövhələrə, kompyuterlərə və proektorlara proqram və texniki xidmətlər göstərilmişdir.

İkinci korpusun təmirdən çıxmış III, IV və V mərtəbələrində lokal şəbəkə yenidən qurulmuşdur. Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin dekanlığının, tyutor otağının, dekan müavinlərinin iş otağının və mərtəbələrdə yerləşən auditoriyaların və kompüter sinfinin kompüterləri ümumuniversitet şəbəkəsinə qoşularaq İNTERNET-ə çıxışı təmin olunmuşdur. İmtahan auditoriyalarının texniki vasitələrinə daimi nəzarət və texniki yardım göstərilmişdir. BDU-nun bütün kompyuterləri 2 illik lisenziyalı Kaspersky antivirusu ilə təmin olunmuşdur.

Hesabat ilində AzRena İctimai Birliyi ilə bağlanmış müqaviləyə uyğun olaraq İNTERNET-in sürəti 200 mbit/s çox olmuşdur. Daxil olan İNTERNET 2 yerə bölünərək, 40 mbit/s sürətə malik internet Jurnalistika fakültəsində daim fəaliyyət göstərən studiyaya verilmişdir.

İTM-n İnternet və şəbəkə texnologiyaları şöbəsi 2017-ci ildə gördüyü işlər aşağıdakılardan ibarət olmuşdur:

- BDU saytı daima nəzarət altında saxlanılmış, kənar müdaxilələrin qarşısının alınması məqsədilə lazımi tədbirlər görülmüşdür;
- Tədris departamentinin şöbələrinin, Mətbuat xidmətı şöbəsinin, Bakı Universiteti qəzetinin, Kimya fakültəsinin və Magistratura və doktorantura şöbəsinin yeni saytları yaradılmisdir;
- BDU və fakültə saytları üçün yeni sayt inzibatçılarının hazırlanması, onlar üçün daimi treninqlərin keçirilməsi davam etdirilmiş və saytin müasir texnologiyalara əsaslanan yeni versiyası üzərində işlər davam etdirilir;
- BDU-nun poçt (mail- ***@bsu.edu.az) xidməti Microsoft şirkətinin serverlərində yerləşdirilmiş və BDU əməkdaşlarının ixtiyarına verilmişdir;
- Universitetin lokal şəbəkəsinin bəzi hissəsi yenidən bərpa olunmuşdur.

BDU-da 2005-ci ildən fəaliyyət göstərən Elmi və tədris işlərinin kompyuterləşdirilməsi şöbəsi əvvəlki illərdə olduğu kimi Boloniya prosesi prinsiplərinin Universitetdə tətbiqi üzrə işçi mərkəzin fəaliyyətdə olması, mövcud tyutor komandasına dəstək verilməsi, yeni tyutor hazırlığı layihəsinin həyata keçirməsi, multimedia kurslarının hazırlanması və Virtual Universitetin işinə

nəzarət edilməsi işləri davam etdirmişdir. Eyni zamanda şöbədə aşağıdakı işlər də yerinə yetirilmişdir:

- Mühazirə mətnlərinin sistemdə yerləşdirilməsi davam etdirilmişdir;
- Əlavə və qiyabi təhsil alan tələbələrin imtanlarının test üsulu ilə keçirilməsi davam etdirilmişdir;
- Əlavə və qiyabi təhsil alan tələbələrin məqbul və imtahanlarının keçirilməsi üçün bütün fənlərin testləri təkminləşdirilərək sistemdə yerləşdirilmişdir;
- 2017-2018-ci tədris ilində 11 nəfər tyutor hazırlanmışdır.
- 2017-2018-ci tədris ilində tyutor hazırlığını davam etdirmək məqsədilə kurslara 10 nəfər tyutorluğa namizəd cəlb olunmuş və 1 noyabr 2017-cı il tarixindən dərslər başlamışdır.

2014-cü ildən başlayaraq BDU üçün yaradılmış Elektron Universitet (EU) layihəsi çərçivəsində Tədrisin idarə olunması sisteminin (TİS) genişləndirilməsi və optimallaşdırılması isə davam etdirilir.

İTM əməkdaşları BDU tədbirlərində aktiv iştirak etmişdır. DİM –in təklifı ilə BDU-da yaradılmış sənəd qəbulu komissiyası(SQK) 13 nəfər İTM əməkdaşlarından ibarət olmuşdur. Onlar 2000-ə yaxın abituriyentin elektron ərizəsinin, BDU-ya qəbul olmuş 5200 nəfər abituriyentin və 600 nəfərdən çox bakalavrın təsdiqini DİM-in saytında həyata keçirmişdir.

**İTM-in rəhbəri** **Əzbər Sadayev**